**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AYGÜN ƏHMƏD QIZI ORUCOVA**

# CƏLİL MƏMMƏDQULUZADƏNİN ŞEİR YARADICILIĞI

**5716.01-Azərbaycan ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Naxçıvan – 2014**

**İş AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor **İsa Əkbər oğlu Həbibbəyli**

**Rəsmi opponentlər:** Filologiya üzrə elmlər doktoru, professor **Himalay Ənvər oğlu Qasımov**

Filologiya üzrə elmlər doktoru **Hüseyn Məmməd oğlu Həşimli**

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrası**

Müdafiə 29 noyabr 2014-cü ildə saat $13^{30}$-da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**ÜNVAN:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina, I mərtəbə, Böyük akt zalı.

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" oktyabr 2014-cü ildə göndərilmişdir.

**FD. 02.121 DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** **dos. İ.Z.Cəfərov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı və ictimai fikri tarixində xüsusi bir mərhələ təşkil edir. Ziddiyyətlər, inqilablar, azadlıq uğrunda mübarizələr, ədəbiyyatın tənqidi məzmunu, xalqın həyatını əks etdirməsi, ədəbi dilin xalq danışıq dilinə uyğunlaşdırılması və s. xüsusiyyətlərilə seçilən bu mərhələnin aparıcı simalarından biri də yazıçı, publisist, dramaturq və ictimai xadim Cəlil Məmmədquluzadədir (1869-1932). Ümummilli liderimiz Heydər Əliyev (1923-2003) ədəbi dövrün başçısı olan istedadlı ədibin yaradıcılığını dəryaya bənzətmişdir: "Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir. Güman edirəm ki, hələ bir neçə nəsil Azərbaycan tarixçisi, ədəbiyyatşünası, sənətşünası, siyasətşünası, alimi Cəlil Məmmədquluzadə xəzinəsini araşdıracaq, onu tədqiq edərək yeni kəşflər edəcəkdir"[1]. 1994-cü ildə böyük yazıçının 125 illik yubileyinin keçirilməsi, həmin ildə Bakı şəhərində, 1999-cu ildə isə Naxçıvanda ev-muzeyinin açılışı ulu öndərin Cəlil Məmmədquluzadənin yaradıcılığına, ədəbi-mədəni irsinə, xalqımızın tarixinə əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzi hesab olunmalıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 6 fevral 2009-cu il tarixli sərəncamı[2] Mirzə Cəlil irsinə münasibətdəki böyük yolun uğurlu davamıdır. Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun bu tarixi sərəncamın işığında təsdiq etdiyi 11 fevral 2009-cu il tarixli tədbirlər planı ilə Cəlil Məmmədquluzadənin doğma vətəni olan Naxçıvan Muxtar Respublikası dahi ədibin 140 illik yubiley tədbirlərinin əsas mərkəzinə çevrildi. Böyük yazıçı tənqidi realizmin, "Molla Nəsrəddin" ədəbi məktəbinin, satirik publisistikanın banisi olmaqla yanaşı, həm də XX əsrdə yeni şeirin ideya-estetik tələblərini ilk dəfə irəli sürən görkəmli şəxsiyyətdir.

Cəlil Məmmədquluzadənin çoxşaxəli ədəbi-ictimai fəaliyyəti barədə indiyədək geniş, əhatəli araşdırmalar aparılmışdır. Məmməd Cəfər Cəfərov, Mirzə İbrahimov, Əli Nazim, Əziz Mirəhmədov, Əziz Şərif, Abbas Zamanov, Mir Cəlal Paşayev, Məmməd Məmmədov, Nazim Axundov, Yaşar

[1] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsində nitqi - Respublika Sarayı, 28 dekabr 1994-cü il / http://lib.aliyev-heritage.org/print.php?lang=az&page=1666130
[2] Cəlil Məmmədquluzadənin 140 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 6 fevral 2009-cu il / http://www.muallim.edu.-az/arxiv/2009/n6/resmi.html



Qarayev, Firidun Hüseynov, Hüseyn İsrafilov, Xalid Əlimirzəyev, İsa Həbibbəyli, İslam Ağayev, Tahirə Məmməd və başqalarının tədqiqatlarında ustad sənətkarın həyatı, mühiti, müasirləri, nəsri, dramaturgiyası, publisistikası, tərcüməçilik fəaliyyəti barədə dolğun səviyyədə söz açılmışdır. Son 20 ildə dahi sənətkarın yaradıcılığına daha çox müraciət olunması, yeni, tədqiq olunmamış sahələrin dərindən araşdırılması[1], Mirzə Cəlilin əsərlərinin dünya dillərinə tərcümə olunub yayılması mühüm əhəmiyyətə malikdir. Lakin onun yaradıcılığında özünəməxsus yer tutan şeir yaradıcılığı indiyədək lazımi araşdırma predmetinə çevrilməmişdir. Nəzərə alınmalıdır ki, ədib bədii yaradıcılığa şeirlə başlamışdır, onun ilk qələm təcrübəsi "Çay dəstgahı" (1899) ədəbiyyatımızda ilk mənzum alleqorik dramdır. Onun həqiqi şair və əsl şeir haqqında qiymətli fikirləri, eyni zamanda bir sıra nəsr və dram əsərlərinin, felyetonlarının daxilində şeir parçalarının işlədilməsi də diqqətdən yayınmır. Ədibin, xüsusən, perifrazları maraq doğurur. Cəlil Məmmədquluzadənin bugünədək qırxa yaxın şeiri toplanıb nəşr edilmişdir. Daha çox satirik səciyyə daşıyan həmin mənzum parçalar həm Mirzə Cəlilin yaradıcılıq axtarışlarının rəngarəngliyini göstərir, həm də XX əsrin əvvəlləri Azərbaycan satirik poeziyasının bir sıra mühüm məsələlərini aydınlaşdırmağa geniş material verir.

**Tədqiqatın obyekti.** Dahi ədib Cəlil Məmmədquluzadənin ilk qələm təcrübəsi olan nəzmlə yazılmış "Çay dəstgahı" alleqorik dramı, şeirləri, əsl şair və yeni dövrün şeirinə dair tələblərini əks etdirən "Proletar şairi", "Şeir bülbülləri" kimi hekayələri və daxilində şeir nümunələri verilmiş dram və publisistik əsərləri tədqiqatın obyektidir. Cəlil Məmmədquluzadənin şeir yaradıcılığının müxtəlif parametrlərdən təhlilini əks etdirən bir sıra elmi məqalələr də tədqiqatın obyekti rolunda çıxış edir.

**Tədqiqatın əsas məqsədi və vəzifələri.** Dissertasiyada Cəlil Məmmədquluzadənin yaradıcılığında onun şeirlərinin əhəmiyyətini və rolunu araşdırmaq, bu şeirlərin bədii təhlilini vermək başlıca məqsəddir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Cəlil Məmmədquluzadənin şeirlərinin toplanması, nəşr olunması və

[1] Cəfər İ.Z. "Molla Nəsrəddin"də jurnalistika sənətkarlığı məsələləri. Naxçıvan: Qeyrət, 2005, 65 s.; Əzimli Ə.T. Cəlil Məmmədquluzadə nəsrində təhkiyə poetikası. (elmi-metodik vəsait). Naxçıvan: Əcəmi, 2005, 72 s.; Əliyeva A.M. Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) arxivinin təsviri. Bakı: Nurlan, 2011, 328 s.; Əliyeva A.M. Cəlil Məmmədquluzadə irsinin nəşri məsələləri. Filol.ü.fəl.dok… dis.avtoref. Bakı, 2011, 31 s.; İsmayılov T.H. Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramı. Filol.elm.nam... dis. avtoref. Bakı, 2005, 27 s.

tədqiq olunması tarixindəki mühüm mərhələləri müəyyənləşdirmək.

- Böyük sənətkarın ədəbi, ədəbi-tənqidi görüşlərinə, XX əsrin şeirindən, xüsusilə satiradan tələblərinə nəzər salmaq.

- Dahi ədibin şeirlərinin folklorla, klassik ədəbiyyatla əlaqəsini araşdırmaq.

- Cəlil Məmmədquluzadənin şeirlərini mövzu və ideyalarına görə qruplaşdırmaq.

- Bu şeirlərdə istifadə olunmuş bədii təsvir və ifadə vasitələrini, şeirlərin bədii dilinin əsas xüsusiyyətlərini müəyyənləşdirmək.

- Cəlil Məmmədquluzadənin şeirlərinin vəzn və janr xüsusiyyətlərini araşdırmaq.

**Tədqiqatın elmi yeniliyi.** "Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı" mövzusunda təqdim olunan dissertasiya bu sahədə ilk elmi tədqiqat kimi mühüm elmi yeniliyə malikdir. Dissertasiyada XX əsr Azərbaycan ədəbiyyatının aparıcı simalarından biri olan Cəlil Məmmədquluzadənin şeirlərinin əsas xüsusiyyətləri araşdırılmış, həmçinin dahi ədibin yeni əsrin ədəbiyyatına və şeir sənətinə dair fikirləri, tələbləri ciddi təhlilə cəlb olunmuşdur. Dahi sənətkarın şeirlərinin ilk dəfə olaraq janrları və vəznləri, dil və üslub xüsusiyyətləri, bədii təsvir və ifadə vasitələri, zəngin şifahi xalq ədəbiyyatımızla əlaqəsi, klassik əsərlərdən istifadənin özünəməxsusluğu müəyyənləşdirilmişdir. Belə nəticəyə gəlinmişdir ki, bu şeirlər XX əsr Azərbaycan ədəbiyyatında satirik şeirin ayrılmaz tərkib hissəsidir. Bunlar satirik ədəbi növün və onun yeni janrlarının formalaşmasında, bir çox mollanəsrəddinçi şairlərin lirik növdən satiraya keçməsində çox mühüm əhəmiyyətə malikdir. İstedadlı yazıçı şeirə rəğbət bəsləmiş, onu insan duyğularına təsir edən ən mühüm vasitə kimi yüksək dəyərləndirmiş, digər ədəbi növlərdəki əsərlərində də yerli-yerində şeirdən istifadə etmişdir.

**Tədqiqat işinin nəzəri-metodoloji əsası**. Qarşıya qoyulmuş problemin həlli üçün dissertasiyada Azərbaycan ədəbiyyatşünaslığında Cəlil Məmmədquluzadənin şeir yaradıcılığına dair tədqiqat əsərlərinə, ədəbi dil, ədəbi növ və janrlarla bağlı araşdırmalara, dövri mətbuat və elmi konfrans materiallarına, arxiv materiallarına istinad edilmiş, klassiklərimizin, görkəmli ədəbiyyatşünaslarımızın fikirlərinə əsaslanılmışdır.

Dissertasiya mövzunun xarakterinə uyğun olaraq azərbaycançılıq ideologiyası mövqeyindən tarixi-ədəbi və nəzəri yanaşma prinsiplərinə əsaslanmaqla analitik və tarixi-müqayisəli təhlil metodlarından istifadə ilə yazılmışdır. Tədqiqatın əsas metodu bu sahəyə dair indiyə qədər özünü göstərən araşdırmalar fonunda yeni interpretasiyalara xüsusi yer verməklə müəyyənləşmişdir.



**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Tədqiqat işi XX əsr Azərbaycan ədəbiyyatının əsas nümayəndələrindən olan Cəlil Məmmədquluzadənin yaradıcılığının yeni bir sahəsinin mövcudluğu haqqında təsəvvür yaratmaq və bu sahənin satirik şeirin yaranmasında mühüm əhəmiyyətə malik olduğunu təsdiq etmək baxımından dəyərlidir. Dissertasiyanın əsas materialları və müddəaları mirzəcəlilşünaslığa dair tədqiqat əsərlərində, filologiya fakültələrində humanitar-filoloji təhsilin bir çox məqamlarında, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbi dili ilə bağlı fənlərin tədrisində istifadə oluna bilər. Tədqiqatın nəticələri ayrıca bir kurs kimi də tədris oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir. "Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı" mövzusu AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 18 dekabr 2006-ci il tarixli iclasında (protokol №8) təsdiq olunmuşdur. Mövzu AMEA-nın Ədəbiyyatşünaslıq Üzrə Problem Şurasının 14 noyabr 2007-ci il tarixli iclasında (protokol №2) koordinasiyadan keçmişdir. Mövzu ilə bağlı müəllif Bakıda 28-30 noyabr 2010-cu ildə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri" mövzusunda keçirdiyi beynəlxalq konfransda "Azərbaycan xalqının milli özünütəsdiqində Cəlil Məmmədquluzadənin satirik şeirlərinin rolu", Naxçıvanda təşkil edilən "6. Nizami`den Yunus Emreye Kemal Atatürk`ten Haydar Aliyev`e Uzanan Sevgi Ve Barış Yolu Sempozyumu"nda (11-12 eylül 2010) "Cəlil Məmmədquluzadənin poeziyasına dair bəzi qeydlər" və "Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri" beynəlxalq konfransında "Cəlil Məmmədquluzadənin müsəlman qadınının həyatından bəhs edən satiraları" (Naxçıvan, 25-26 oktyabr 2013) mövzularında məruzə etmişdir. Tədqiqatın mateialları, onun əsas nəticələri həm respublikada, həm də xaricdə - Türkiyədə 4, Ukraynada 1 məqalə olmaqla 20-dən çox elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, məqsəd və vəzifələri, elmi yeniliyi, metodoloji əsası, nəzəri-praktik əhəmiyyəti, aprobasiya və quruluşu haqqında əhatəli şəkildə məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **"Cəlil Məmmədquluzadənin şeirlərinin toplanması, nəşri və tədqiqi məsələləri, şeirə dair fikir və mülahizələri"** adlanır və üç yarımfəsildən ibarətdir. I yarımfəsil **Cəlil Məmmədquluzadənin şeirlərinin toplanması və nəşri"** məsələlərindən bəhs edir. Cəlil Məmmədquluzadənin əldə olan şeirlərinin əksəriyyəti ilk dəfə məhz "Molla Nəsrəddin" jurnalında dərc olunmuşdur. Böyük ədibin on dörd şeiri ilk dəfə Abbas Zamanov və Kamran Əliyev tərəfindən toplanılıb "Mollanəsrəddinçi şairlər" (1986) adlı kitabda nəşr edilmişdir. Kitabda sıra etibarilə birinci Cəlil Məmmədquluzadənin şeirlərinə yer verilməsi təsadüfi deyildi. Çünki satirik şeirin XX əsrdə ilk nümunəsini "Lisan bəlası"nın timsalında hamıdan əvvəl baş redaktorun özü hazırlamışdı. Cəlil Məmmədquluzadənin bu kitabda "Lisan bəlası", "Xoş ol zaman ki...", "Qız və nənə", "Molla Nəsrəddin"in qıza cavabı", "Laylay", "Utanma", "Ey könül", "Olacaqsan", "Oyanmadım", "Nədir?", "Nəzm", "Yuxu", "Gərək", "Mürəbbe" adlı şeirləri nəşr olunmuşdur.

Azərbaycan ədəbiyyatının romantizm və tənqidi realizm sahələrinin bir sıra problemlərinin həllində böyük xidmətləri olan akademik İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin əsərlərinin nəşri, tədqiqi və beynəlxalq miqyasda tanıdılması sahəsində çox mühüm addımlar atmışdır. Mirzə Cəlilin digər şeirlərinin toplanması və nəşri kimi şərəfli bir işi akademik İsa Həbibbəyli öz üzərinə götürmüşdür. Mirzəcəlilşünas alimin 2004-cü ildə tərtib etdiyi Cəlil Məmmədquluzadənin əsərlərinin tam külliyyatının təqdirəlayiq cəhətlərindən biri ilk dəfə olaraq Mirzə Cəlil şeirlərinin "Əsərlər"ə daxil edilməsi və daha on altı şeirinin toplanılıb nəşr edilməsidir. Böyük sənətkarın "Axunda müraciət", "Dedilər", "O kimdir?", "Görəndə", "Nə bilim?", "Ey axund", "Lazımdır utanmaq", "Ey yazıq", "Ağarıbdır", "Ay gülüm nanay", "Biz", "Qafqaz xəbərləri", "Yoldan keçər ikən", "Yorğan", "Nağıl", "Zaman ol zaman idi", "Sən qanmasan" satirik şeirləri ilk dəfə olaraq bu dördcildlikdə ona məxsus şeir nümunələri kimi təqdim olunmuşdur. Akademik İsa Həbibbəyli 2009-cu ildə tərtib etdiyi Cəlil Məmmədquluzadənin ikicildlik "Seçilmiş əsərləri"ndə isə istedadlı sənətkarın jurnalın 1911-ci ilinin müxtəlif nömrələrində dərc olunmuş beş yeni şeirini toplayıb nəşr etdirmişdir.

**"Cəlil Məmmədquluzadə şeirlərinin tədqiqi məsələləri"** adlanan II yarımfəslin I bəndində Sovet dövrü ədəbiyyatşünaslığında şeirlərinin tədqiqi məsələlərindən bəhs olunmuşdur. Ədibin mənzum əsərlərinə ədəbiyyatşünaslığın əsas diqqəti 1960-cı illərdən başlayır. AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov Mirzə Cəlilin anadan olmasının yüzillik yubileyi ərəfəsində "Azərbaycan" jurnalında nəşr etdirdiyi "Onun şairliyi də vardı"



(1967) adlı məqaləsi ilə ədəbi mühitin diqqətini bu mühüm və aktual mövzuya cəlb etmişdir. Ə.Mirəhmədov "Azərbaycan Molla Nəsrəddini" monoqrafiyasında (1980), "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə (1978) Mirzə Cəlil poeziyası haqqında fikirlərini daha da genişləndirmiş, bəzi şeirlərini ədəbi təhlilə cəlb etmişdir. Onun fikrincə, Cəlil Məmmədquluzadə Sabirlə birlikdə "Molla Nəsrəddin" səhifələrində satirik şeirə rəvac verməklə Azərbaycan şeirində tənqidi realizm və satiranın inkişafına böyük kömək etmişdir. Böyük ədibin uzun illər ərzində arxivlərdə unudulub qalmış bir çox əsərlərini daha ətraflı öyrənən müəllif bu nəticəyə gəlmişdir ki, Cəlil Məmmədquluzadənin bədii irsinin xarakteristikasını nəsr, dramaturgiya və publisistika janrları ilə məhdudlaşdırmaq olmaz, əldə olan əsərləri ondan bir tərcüməçi, tənqidçi və şair kimi söz açmağa imkan verir. Ədəbiyyatşünas alim Mirzə Cəlilin şeirlərinin çox mühüm əhəmiyyətə və geniş ədəbi təsir dairəsinə malik olduğunu da qeyd etmişdir: "Onun özünün yazmış olduğu şeirlər və etdiyi mənzum iqtibaslar, sayca nə qədər az olsa da, XX əsr Azərbaycan realist şeirinin, xüsusilə satirik poeziyamızın inkişafına bizim indiyədək təsəvvür etdiyimizdən xeyli artıq təsir göstərmişdir"[1].

AMEA-nın müxbir üzvü, professor Abbas Zamanov Mirzə Cəlil poeziyasını çox yüksək qiymətləndirmişdir: "İyirminci əsrin inqilabi-satirik şeiri forma, məzmun, məfkurə və sənətkarlıq baxımından "Lisan bəlası"ndan çıxmışdır[2].

Filologiya elmləri doktoru, professor İslam Ağayev "Molla Nəsrəddin"in poetikası" (1985) adlı monoqrafik tədqiqatında Cəlil Məmmədquluzadənin "Lisan bəlası" (1906) və "Xoş ol zaman ki, xalq yatıb bizəban idi" (1906) satiralarının yüksək ideyalılığı ilə diqqəti cəlb etdiyini və birinci satiranın az zamanda ədəbi hadisəyə çevrildiyini, "bədii forma, dil, üslub baxımından yeni"[3] olduğunu və bu şeirin üsulundan sonralar Sabirin və Məmməd Səid Ordubadinin satirik şeirlərində istifadə etdiyini nəzərə çatdırmışdır. O, ikinci satiranın bədii dəyərini belə müəyyənləşdirmişdir: "Molla Nəsrəddin" şeir məktəbində başlıca janrlardan olan satirik təhzil üsulunu birinci dəfə Cəlil Məmmədquluzadənin şeirində görürük" [4].

Professor Firidun Hüseynov "Molla Nəsrəddin və mollanəsrəddinçilər" (1986) monoqrafiyasının müxtəlif bölmələrində Mirzə Cəlilin bəzi

---

[1] Mirəhmədov Ə.M. Azərbaycan Molla Nəsrəddini. Bakı: Yazıçı,1980, s.357.

[2] Mollanəsrəddinçi şairlər. (Tərtib edənlər Abbas Zamanov və Kamran Əliyev). Bakı: Yazıçı, 1986, s.8.

[3] Ağayev İ. "Molla Nəsrəddin"in poetikası. Bakı: Elm, 1985, s.83.

[4] Ağayev İ. "Molla Nəsrəddin"in poetikası. Bakı: Elm, 1985, s.83.

şeirlərinin təhlilini verməklə yanaşı, onun köhnə formalara, qəzəl, qəsidə janrlarına, mərsiyə ədəbiyyatına tənqidi münasibəti, klassik ədəbi irslə əlaqəsi, ümumiyyətlə, sənət və ədəbiyyat qarşısında qoyduğu tələbləri haqqında qiymətli fikirlər irəli sürmüşdür. **"Sovet dövrü ədəbiyyatşünaslığında şeirlərinin tədqiqi"** adlı bənddə bu nəticəyə gəlinmişdir ki, sovet dövrü ədəbiyyatşünaslığında Mirzə Cəlilin şeir yaradıcılığı müsbət qiymətləndirilmiş, bir sıra diqqətəlayiq dəyərləndirmələr aparılmışdır. Bu bəndin sonunda "Millət necə tarac olur-olsun, nə işim var?" (1906) satirası ilə bağlı Cəlil Məmmədquluzadənin "Sabir kütubxanasının on illiyi" (1929) kitabında nəşr olunan "Sabir barəsində xatiratım" əsərində ifadə olunmuş fikirləri, təqdim etdiyi dəlillər, mübahisələrin tarixi və məzmunu ilə bağlı olan istiqamətlər nəzərdən keçirilmiş və ümumiləşdirilmişdir. Sonda bu nəticəyə gəlinmişdir ki, bu şeirin əsl müəllifinin dəqiqləşdirilməsi üçün dərin və ətraflı tədqiqata ehtiyac vardır.

II yarımfəslin II bəndi **"Müstəqillik dövründə Mirzə Cəlil şeirlərinin tədqiq olunması"** adlandırılmışdır. Bu mərhələdə filologiya üzrə elmlər doktoru, professor Tərlan Novruzov Mirzə Ələkbər Sabir haqqındakı tədqiqatında ("Sabir ədəbi məktəbi" (1992) – A. O.) "Molla Nəsrəddin" şeir üslubunu Cəlil Məmmədquluzadənin kəşf etdiyini"[1], "Lisan bəlası" (1906) şeiri ilə jurnalın poeziya üslubunun müəyyənləşdiyini, mollanəsrəddinçi poeziyanın ən yaxşı nümunəsi olmasa da, bu şeirdə yeni satiranın xarakterik cizgilərinin əks olunduğunu qeyd etmişdir. Akademik İsa Həbibbəyli "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" (1997) adlı kitabında böyük ədibin bəzi mənzum əsərlərinin tədqiqi ilə məşğul olmuşdur. Xüsusən, "Çay dəstgahı" (1889) mənzum alleqorik dramının yazılma səbəblərini, ilk qələm təcrübəsi olan bu əsərdə müəllifin bir sıra mühüm əhəmiyyətli, mütərəqqi ideyalar ifadə etdiyini nəzərə çatdırmışdır. "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" (1997) əsərində "Lisan bəlası" şeirinin də geniş ədəbi təhlili ilə rastlaşırıq. "Molla Nəsrəddin" satirasına xas olan əsas ideya-sənətkarlıq xüsusiyyətlərini özündə əks etdirən mənzumə", "həqiqi, mükəmməl nümunə", "kamil, bitkin bədii örnək" və s. ifadələrdə "Lisan bəlası" şeiri özünün obyektiv bədii dəyərini tapmışdır: "Şeirdə qonşuların ayılıb silahlandığı, haq-nahaq dava-mərəkə qopardığı çətin, mürəkkəb bir zamanda hələ də dinib-tərpənməyən müsəlmanın bənzərsiz portreti yaradılmışdır"[2]. Ədəbiyyatşünas İslam Ağayev Cəlil Məmmədquluzadənin "Lisan bəlası" (1906) şeirini "həmin dövrdə romantik şeirin təbliğ etdiyi ictimai ideaların

[1] Novruzov T.C. Sabir ədəbi məktəbi. Bakı: Yazıçı, 1992, s.36.
[2] Həbibbəyli İ.Ə.Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, s.273.



üslubi cəhətdən fərqli ifadəsi"[1] adlandırmışdır. Filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərlinin "Cəlil Məmmədquluzadənin yaradıcılığında Şərq şeiri şəkilləri" (2007), "Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı" (2008), filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimlinin "Dünəndən sabaha başlanan yol" (2009) adlı məqalələrində Mirzə Cəlil şeirlərinin müxtəlif istiqamətlərdən tədqiqi ilə rastlaşırıq.

**"Cəlil Məmmədquluzadənin şeirə dair fikir və mülahizələri"** adlı III yarımfəsildə Cəlil Məmmədquluzadənin ədəbi-nəzəri görüşlərində şeir problemi, onun ədəbiyyat və sənətə baxışı, xüsusən şeirə münasibəti və bağlılığı, yeni əsrin şeirindən tələbləri, ədəbi-tənqidi fikirləri araşdırılmışdır. Xalqı azadlıq uğrunda mübarizəyə aparan yolda ədəbiyyatın və incəsənətin mühüm təsirə malik olduğunu Mirzə Cəlil çox doğru müəyyənləşdirmişdi. XX əsr kimi bir zamanda bizim şairlərin qafiyə axtarmağı, məna və məzmunu qafiyəyə qurban verib şeir yazmağı bədii sənətin sirlərinə dərindən bələd olan böyük sənətkarı narahat etsə də, o, bunun əksini də qəbul etməmişdir. Böyük tənqidçi sələfi Mirzə Fətəli Axundzadə kimi Mirzə Cəlil də şeirdə bu tələblərin hər ikisinə əməl olunmağını əsas saymışdır. "Şeir bülbülləri" (1925) hekayəsi böyük ədibin şeir sənəti haqqındakı mülahizələrinin bədii formada təqdimidir. Burada qulluqçu Zeynəb arvadın dilindən hekayə içərisində verilmiş nağıl çox mühüm əhəmiyyətə malikdir. Sadə xalq nümayəndəsinin söylədiyi açıq və şirin Azərbaycan nağılını şeir məcnunu köhnə dostunun həvəslə oxuduğu şeir bülbüllərinin qəliz, ərəb-fars sözlərindən ibarət anlaşılmayan "qiyamət" şeirlərinə qarşı qoyan ədib üstünlüyü xalq ədəbiyyatına vermişdir.

Dissertasiyanın **"Cəlil Məmmədquluzadənin şeirlərinin klassik irslə əlaqəsi, mövzusu və tənqid hədəfləri"** adlı II fəslinin **"Klassik ədəbi irsə müraciət"** yarımfəslində novator ədibin klassik ədəbi irsə münasibəti və müraciəti məsələsi, Azərbaycan ədəbiyyatının klassiklərinə yazdığı perifrazları və bunların üzərində apardığı sənətkarənə iş yüksək dəyərləndirilmişdir. "Sokratı, Puşkini, Qoqolu, Darvini, Con Stüart Milli rus dilində, "Səyahətnameyi-İbrahimbəy" romanını fars dilində mütaliə etmiş"[2] Cəlil Məmmədquluzadə Sədi Şirazi, Hafiz Şirazi, Əbülqasim Firdovsi və Ömər Xəyyam kimi Şərq klassiklərindən daha çox faydalanmışdır. Azərbaycan ədəbiyyatının Molla Pənah Vaqif (1717-1797), Qasım bəy Zakir (1784-1857), Seyid Əzim Şirvani (1835-1888), Həsənəliağa Xan Qaradaği

[1] Ağayev İ. XX əsrin əvvəllərində Azərbaycan şeiri. Bakı: Elm, 2002, s.69.
[2] Həbibbəyli İ.Ə. Dahilik divana çəkilməz / http://www.elibrary.az/cgiirbis_64exe.

(1850-1929), Türkiyə ədəbiyyatının Namik Kamal (1840-1888) kimi klassiklərinin ənənələrindən yararlanmış, onlardan bacarıqla, novatorcasına istifadə etmiş, bununla tənqid hədəflərini daha kəskin ifşa etməyə, fikirlərini xalqa daha asan yolla çatdırmağa nail olmuşdur.

II yarımfəsil **"Cəlil Məmmədquluzadənin şeirlərinin mövzusu, ideyası və tənqid hədəfləri"** adlanır. Burada qeyd olunmuşdur ki, böyük ədibin "Ölülər", "Kamança", "Dəli yığıncağı", "Danabaş kəndinin əhvalatları", "Buz", "İki alma", "İki qardaş", "Zəlzələ" hekayələrində və "Məmmədqulubəy Kəngərlinin tərcümeyi-halı", "Molla Murtuzaqulu", "Doqquz yaşında" məqalə və felyetonlarında emosionallıq, həyəcan, yüksək lirizm diqqətəlayiqdir.

**"Mədəni gerilik, avamlıq və ətalətin ifşası"** adlı bənddə qeyd olunmuşdur ki, dahi sənətkarın "Lisan bəlası", "Dedilər", "Oyanmadım", "Laylay", "Yorğan", "Ey yazıq" satirik şeirlərində mövhumat, gerilik, avamlıq, elmsizlik, fanatizm kimi ictimai bəlaların tənqidi ön plandadır. "Lisan bəlası" yalnız sükutun, dinməməzliyin satirası deyil, XX əsrin əvvəllərində vətənimizin bir çox ictimai bəlalarından, problemlərindən bəhs edən bir şeir kimi mühüm əhəmiyyətə malikdir. "Laylay" (1906) və "Yorğan" (1908) satirik şeirlərində yeni nəslin tərbiyə olunmasında müstəsna rolu olan valideynlərin mühafizəkar görüşləri, bütün maddi və mənəvi çətinliklərə dözərək dinib tərpəşməyənlər, yorğanını başına çəkib yatanlar tənqid olunmuşdur. Bu bənddə belə bir nəticəyə gəlinmişdir ki, Cəlil Məmmədquluzadənin Şərqin qəflət yuxusunu ifşa edən satirik şeirləri təsirliliyi, dövrün çox mühüm ictimai-siyasi hadisələrini əks etdirməsi, həm də məna-məzmun dəqiqliyi, fikir sərrastlığı, bədii təsir gücü baxımından çox mühüm əhəmiyyətə malikdir.

II fəslin **"Cəlil Məmmədquluzadənin satirik şeirlərində qadın məsələsi"** adlı bənddə onun Qasım bəy Zakirin (1784-1857) "Ağarıbdır" müxəmməsinə yazdığı satirik nəzirə, "Dəbistan" (1906-1908) jurnalından götürülmüş "Qız və nənə" (1906) adlı tərcümə əsərinə cavab olaraq yazılmış "Molla Nəsrəddinin qıza cavabı" (1906), "Biz" (1907), "Lazımdır utanmaq" (1906) satiralarında taleyi öz əlində olmayan Azərbaycan qadınının əlindən alınan hüquq və azadlıqlarından bəhs edilmişdir. Mühafizəkar görüşlü din xadimlərinin uydurduğu yalanları Qurandan gətirdiyi dəlillərlə sübut edən Mirzə Cəlil Azərbaycan qadınının hətta üzünü belə örtməsinə, dörd divar içində saxlanılmasına qarşı çıxmış, onun məktəbə gedib elm öyrənməyini, öz hüquqlarından xəbərdar olmağını, əcnəbi xanımlar kimi mədəni, müəyyən ixtisas sahibi olmağını, ictimai işlərdə fəal, ana dilimizə, milli mentalitetimizə bağlı olmağını arzulamışdır.



**"Yalançı din xadimlərini ifşa edən satirik şeirlər"** Mirzə Cəlil yaradıcılığında kəmiyyətcə üstünlük təşkil edir. Dahi ədib özü də bilirdi ki, dini mövhumat ilə mübarizəyə çıxan bir cəridə, dəxi ümumkütlələr və hizblər içində rövnəq tapa bilməz. Buna baxmayaraq, o, mövhumat və xurafatla mübarizədə misilsiz cəsarət göstərmiş, ölümünə fitva verilməyinə, təhdidlərə, hədə-qorxulara baxmayaraq həyatının sonunadək bu mübarizədə geriyə bir addım belə atmamışdır. Daim hər kəsdən üstün tutulan, hörmət qoyulan, mələk hesab olunan mövhumatçı din xadimləri Molla Nəsrəddinin ən qatı düşmənidir, çünki xalqın avam və cahil, elmsiz olmağına, millətinin millətlər sırasından geri qalmağına səbəb məhz onlardır. Mirzə Cəlil bu satiralarda öz şəxsi mənfəəti üçün çalışan, bu yolda murdar hesab etdiyi rus vəzifəlilərinə və padşahına yaltaqlanmağı özünə ar bilməyən, çarizmin ruslaşdırma siyasətinə göz yuman molla və ruhaniləri tənqid etmişdir. Barsız ağaca bənzətdiyi axundu ifşa etmək üçün şair atalar sözlərindən istifadə ilə maraqlı bədii təzad yaratmışdır:

Ucadır, yoxdu söz ki, boyda çinar,
Səndən islamə heç görülmədi bar.
Qoy riyanı yerə gəl, etgilən ar,
Nə çıxar padşahdən sənə kar?

Bu şeirlərdə fanatik ruhanilərin eybəcər daxili aləmi və gizlin əməlləri bütün çılpaqlığı ilə xalqa çatdırılmışdır. Buna görə də Mirzə Cəlilin şəriəti oğurlayıb öz xeyrinə dəyişən ruhaniləri tənqid və ifşa edən şeirləri olduqca dəyərlidir.

**"Elm və maarifdən bəhs edən şeirlər"** adlı bənddə onun dövrün mühüm ictimai hadisələrini, maarif, teatr sahəsində görülən tədbirləri əks etdirən "Nədir" (1906), "Yoldan keçər ikən" (1906), "Ey könül" (1906) və s. satirik şeirləri ədəbi təhlilə cəlb olunmuşdur. XX əsrin əvvəllərində maarifçilik hərəkatının canlanması, milli teatr və mətbuat sahəsindəki xüsusi intibah, 1906-cı və 1907-ci illərdə Azərbaycan müəllimlərinin birinci və ikinci qurultaylarının çağırılması, qiraətxanaların, xeyriyyə cəmiyyətlərinin yaradılması, yeni üsullu məktəblərin açılışı, bu məktəblərdə istifadə olunmaq üçün dərsliklərin hazırlanması və s. tədbirlər xalqın gözünü açmaq, xurafat və cəhalətə amansız zərbə endirmək məqsədi daşıyırdı. "Nədir" (1906) satirik şeiri də mürtece görüşlü din xadimlərinin, bəy və xanların dilindən "İrşad" qəzetinin redaktoruna ünvanlanmışdır. Onlar məktəb, qəzet, kitab deyərək xalqın, millətin halına yanan, dərdlərinə dərman axtaran, ah-fəryad edən, göz yaşları tökən maarifpərvər ziyalıları pirlərə, cindarlara ümid etməyə, axirətini qazanmağa çağırırlar. Onların fikrincə, məktəbxana təhsili insanın evini viran edən bir bəladır:

Sən deyirsən qoymaram millət tamamən məhv ola,
Vallah, heç bir kəs də bilməz böylə ehsanın nədir?

"Ey könül" (1906) satirik şeirində sadə insanların, xalqın aşağı təbəqələrinin dərdlərinə şərik olan şairin bu yolda bütün imkanlarını səfərbər etməyinə baxmayaraq, işinin qəm-qüssə olduğu göstərilmişdir. "Deyirəm dərsi-əlifbey sizə" (1911) satirik şeirində köhnə üsulla dərs verən mollaların tədris üsullarının artıq zamanının ötdüyü və zərərli cəhətləri onların öz dili ilə satirik şəkildə ifadə olunmuşdur. "Görəndə" (1906) satirik şeiri isə müsəlmanların rus vəzifəlilərini görəndə səcdəyə düşmələrinin adət halını almasını ifşa məqsədilə yazılmışdır. "Ədəbiyyat" (1911) sərlövhəli satirik müstəzadında xristianların Pasxa bayramında müsəlmanların adət-ənənələrimizə, müqəddəs dini dəyərlərimizə zidd olan hərəkətləri və bunun nəticəsində də gülünc vəziyyətə düşməyi satira yolu ilə ifşa edilmişdir. Beləliklə, aydın olur ki, istedadlı sənətkar XX əsrin bir çox ictimai mahiyyətli, maarif, təhsil, mətbuat, milli mentalitetlə bağlı məsələlərini satirik şeirlərində də əks etdirərək bu sahədəki qüsurların aradan qaldırılması üçün çalışmışdır.

**"İran mövzusundan bəhs edən satiralar"** adlanan bənddə qeyd olunur ki, Mirzə Cəlilin "Gərək" (1906), "Nəzm" (1906), "Olacaqsan" (1906) və s. satirik şeirlərində İran xalqının düşmənləri olan müxtəlif qüvvələr tənqid obyekti seçilmiş, İrandakı özbaşınalıq, sadə xalq nümayəndələrinin hüquqlarının tapdanmağı öz satirik ifadəsini tapmışdır. Satirik mənzum "Nağıl"da (1907) göstərilir ki, iranlıların xeyriyyə cəmiyyəti üçün topladıqları pulları İran konsulu polislə əlbir olaraq mənimsəmişdir. XIX əsr böyük Azərbaycan şairi Seyid Əbülqasim Nəbatinin (1812-1873) məşhur çarparəsi əsasında yazılmış "Gərək" (1906) şeiri İran konsulunu tənqid və ifşa etmək məqsədilə yazılmışdır. Konsul rəiyyətin yeri-göyü ağladan həyəcanına şərik olmalı, özü üçün simu-zər toplamamalı, xalqın mənafeyi üçün çalışmalıdır:

Qoyma ağlasın həmvətənlərin,
Gözlə onların xeyrin, həm şərin,
Söyləsin sənə millət: - Afərin!
Etgilən bina bir əsər gərək.

Böyük Azərbaycan şairi S.Ə.Şirvaninin (1835-1888) eyniadlı qəzəli əsasında yazılmış "Olacaqsan" (1906) satirik şeirində ana vətəninin qaranlıqda olmağına əhəmiyyət verməyərək düşmənə işıq olan iranlıları dahi ədib ayılıb huşyar olmağa çağırmışdır. Cəlil Məmmədquluzadənin İran mövzusunda yazılmış şeirlərinin təhlili onu göstərir ki, böyük humanist sənətkar milliyyətindən asılı olmayaraq, daima öz hüquqlarını bilmədiyindən əzilən



sadə, zəhmətkeş, adi insanların mənafeyini müdafiə, onların düşmənləri olan müstəbid, qaniçən şahları, dindən sui-istifadə edən yalançı ruhaniləri və qürbət ellərdə xalqın seçilmiş nümayəndələri olmağına baxmayaraq öz vəzifələrini yerinə yetirməyən İran konsullarını isə tənqid etmişdir.

Dissertasiyanın III fəsli **"Cəlil Məmmədquluzadə şeirlərinin bədii xüsusiyyətləri"** adlanır və beş yarımfəsildən ibarətdir. "Məcazlar sistemi" adlı üç bənddən ibarət olan I yarımfəsildə dahi ədibin şeirlərindəki bədii təsvir və ifadə vasitələri, satirik monoloq və dialoqlardan istifadənin özünəməxsusluqları araşdırılmışdır. Qeyd olunmuşdur ki, bu şeirlərdə bədii təsvir vasitələrindən – epitet, təşbeh, metafora, metanimiya, simvollardan və bədii ifadə vasitələrindən – bədii sual, bədii təzad (antiteza), təkrir (anafora, epifora), kinayə (təriz, sarkazm), mübaliğə, inversiya, litotadan böyük orijinallıq və məharətlə istifadə olunmuşdur. "Oxuyardım sizə hər ləhzə bu dadlı qəzəli" – misrasındakı "dadlı qəzəl" epiteti, mühafizəkar dünyagörüşlü din xadimləri haqqında işlədilmiş "saqqalı sünbüldür", "yanağı lalə", "gözü piyalə" mükəmməl təşbehləri, "Əgər görsə zaqatallı, Qiraətxanalar ağlar"- misrasındakı "Qiraətxanalar ağlar" metafora-istiarə tamamilə yeni və orijinaldır. Qeyd olunmuşdur ki, Cəlil Məmmədquluzadənin "Xoş ol zaman ki...", "Dedilər", "Nə bilim", "Olacaqsan", "Oyanmadım", "Zaman ol zaman idi", "Biz", "Çobanlar", "Deyirəm dərsi-əlifbey sizə" və s. satiraları I şəxsin təkində olan satirik tipin, "Biz" və "Çobanlar" şeirləri birinci şəxsin cəminin monoloqlarının təqdimi formasında qələmə alınmışdır. İki nəfərin dialoqu Mirzə Cəlilin "Molla Nəsrəddin"in qıza cavabı" adlı şeirində ifadə olunmuşdur.

**"Folklorun janrlarından yaradıcı istifadə"** adlı II yarımfəsildə onun "Çobanlar", "Laylay", "Oyanmadım", "O kimdir?" "A gülüm, nanay" və digər əsərlərində folklorun janrlarından istifadənin əsas xüsusiyyətləri nəzərə çatdırılmışdır. Satirik şeirlərində böyük sənətkar şifahi xalq ədəbiyyatının tapmaca, ağı, vəsfi-hal, xalq mahnısı və s. janrlarından məharətlə istifadə etmişdir. O, şeirlərində canlı tiplər yaratmaq üçün idiomatik ifadələrdən, xalq dilinin zəngin xəzinəsindən, folklordan, aforizmlərdən geniş istifadə etmişdir. Cəlil Məmmədquluzadə öz xalqının şairi kimi "Sənət həyat üçündür" şüarını bayraq edib, ümumxalq işi naminə yazıb-yaratmış, müasir həyatdan yazıb xalqa xidmət etməyi şairin müqəddəs vətəndaşlıq borcu saymışdır.

III yarımfəsildə **şeirlərin dil xüsusiyyətləri** araşdırılmışdır. Azərbaycan topluluğunun modern dilinin memarı Cəlil Məmmədquluzadənin şeirlərində kəmiyyət şəkilçiləri, mənsubiyyət kateqoriyası, felin əmr forması, şəxs şəkilçiləri və şəxs əvəzlikləri, substantivləşmə, köməkçi sözlərin

əsas mövqeyi, həmcins üzvlər, canlı xalq dilinin söz və ifadələri, sadə və mürəkkəb cümlələr, vasitəsiz nitq, onun vasitəli nitqlə sintezi, xitab və ara sözlər, köməkçi nitq hissələri, əlavələr, arxaizmlər, neologizmlər, izafət tərkiblərindən yerli-yerində və çox yüksək sənətkarlıqla istifadə edilməsi onun Azərbaycan dilinin sözlərinin məna çalarlarına dərindən bələd olduğunu və bunu şeirlərində əks etdirdiyini göstərir.

**"Cəlil Məmmədquluzadənin şeirlərinin vəzn və janr xüsusiyyətləri"** adlı IV yarımfəslin I bəndində böyük sənətkarın heca vəznində olan "Molla Nəsrədinin qıza cavabı" (qoşma), "A gülüm, nanay" (gəraylı), "Mürəbbe" (qoşma), "Sən qanmasan" (dördlük), "Çobanlar" (beşlik) şeirləri və onların janr xüsusiyyətləri müəyyən edilmişdir. Bu qənaətə gəlinmişdir ki, Cəlil Məmmədquluzadə yaradıcılığında heca vəzninin daha çox onbirlik ölçüsünə, janr baxımından isə qoşma və gəraylı janrlarına üstünlük vermişdir.

IV yarımfəslin II bəndində **"Əruz vəznli şeirlərinin janrı, bəhrləri"** araşdırılmışdır. Qeyd olunmuşdur ki, Cəlil Məmmədquluzadə əruz vəzninin həzəc, rəməl, müzare, xəfif, səri, münsərih, mütədarik bəhrlərindən istifadə etmişdir. Mirzə Cəlilin əruzvəznli şeirlərinin əsas xüsusiyyətləri haqqındakı fikirləri yekunlaşdırarkən qeyd etməliyik ki, o, əruz vəzninin müxtəlif bəhrlərindən və bir çox janrlarından çox böyük məharətlə və novatorcasına istifadə etmiş, perifrazlarında formal xüsusiyyətləri saxlamağı bacarmış, əruz vəznli şeirlərdə bir sıra sintezlər aparmışdır. Böyük sənətkar şeirin qayda-qanunlarına bəzən riayət etməməklə, əsrlərlə xalqın bədii təfəkkürünü öz təsir qüvvəsində saxlayan vəzni, qafiyəni pozmaqla da şüurlara təsir göstərmək istəmişdir.

**"Cəlil Məmmədquluzadənin "Çay dəstgahı" əsərinin şeir texnologiyasına dair"** adlı V yarımfəsildə böyük sənətkarın ilk qələm təcrübəsinin məzmun-ideya xüsusiyyətləri, heç də zəif, tamamilə qüsurlu bir əsər olmadığı, əruz vəzninin xəfif bəhrində və məsnəvi janrında qələmə alındığı göstərilmişdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində qeyd olunmuşdur ki, aparılan tədqiqatlar sübut edir ki, Cəlil Məmmədquluzadənin yaradıcılığında onun şeirlərinin xüsusi yeri və rolu vardır. Bu şeirlər ictimai məzmunlu satirik şeirin ilk, örnək xarakterli nümunələri olmağına baxmayaraq kamilliyi, orijinallığı, əsrin əvvəllərində təmtəraqlı poeziya dilinin dəbdə olmağına baxmayaraq sadə, dərin dili və üslubu, mövzu, janr və vəzn rəngarəngliyi, bədii vasitələrlə zənginliyi, klassik ənənələrimiz və şifahi xalq ədəbiyyatı ilə dərindən bağlılığı ilə çox mühüm əhəmiyyətə malikdir.

Ümumən yaradıcılığında olduğu kimi, şeirlərində də dahi sənətkarın əzilən xalq kütlələrinin, hüquqları əlindən alınan müsəlman qadınlarının mənafeyini müdafiə etdiyinin bir daha şahidi oluruq. Zəhmətkeş kütlələrin qanını soran qüvvələr, yalnız öz şəxsi mənafeyini düşünən yerli və rus vəzifəliləri, mülkədarlar, yalandan şəriət uyduran din xadimləri onun şeirlərinin başlıca tənqid hədəfləridir. O, çox ziddiyyətli, qaynar XX əsr Azərbaycan həyatının, demək olar ki, bir çox məsələlərini öz şeir yaradıcılığında əhatə edə bilmişdir.

Mirzə Cəlil bütün həyatı boyu hansı ədəbi növdə qələm çalmasından asılı olmayaraq-həm dram və nəsr əsərlərində, həm də felyetonlarında klassik poeziya nümunələrindən, həmçinin orijinal satirik şeirlərdən böyük məharətlə istifadə etmişdir. Böyük sənətkara aid olan şeirlər, əsasən, satirik nümunələrdən ibarətdir. Harmoniya, axıcılıq, humanizm, yüksək vətənpərvərlik onun bütün əsərlərində hiss olunur. O, poeziyanı insan duyğularına təsir edə biləcək ən mühüm vasitə kimi qiymətləndirmişdir. Yüksək ictimai məzmun, vətən sevgisi, sadəlik, yığcamlıq, ideyalılıq, çeynənmiş vəzn və qafiyələrdən uzaq olmaq, zamanına uyğun gəlməyən misilsiz cəsarət, xalq ədəbiyyatına dərindən bağlılıq və ondan yaradıcı istifadə, novatorluq onun şeirlərinin başlıca məziyyətlərindəndir. Onun satiraları XX əsr Azərbaycan şeirində tənqidi və satirik ünsürlərin yaranmasına, satiranın bir ədəbi növ kimi formalaşması və inkişafına səbəb olmuş, hətta ədəbi məktəb formalaşdıra bilmişdir. "Molla Nəsrəddin" şeir məktəbinin yaranmasına məhz Mirzə Cəlil səbəb olmuşdur. Sabir və başqa mollanəsrəddinçi şairlər onu inkişaf etdirərək ən yüksək zirvəyə qaldırmış, Azərbaycan ədəbiyyatında aparıcı mövqe tutmasını təmin etmişlər.

Tədqiqatın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:


1. Cəlil Məmmədquluzadə şeirlərinin nəşri və tədqiqi tarixindən // Azərbaycan Dövlət Dillər Universitetinin Elmi Xəbərləri. 2007, №5, s.244-249.
2. Hüseyn Cavid və Mirzə Cəlil // AMEA Naxçıvan Bölməsinin Xəbərləri . İctimai və humanitar elmlər seriyası, 2007, №3, s.197-203.
3. Celil Memmedquluzade`nin şairliyi de vardı // Azerbaycanın panoraması.Türkiye, 2008, sayı 3, s.38-41.
4. Cəlil Məmmədquluzadə yaradıcılığında Azərbaycan şifahi xalq ədəbiyyatı janrlarından yaradıcı istifadə // Cəlil Məmmədquluzadə: taleyi və sənəti. (Məqalələr toplusu). Bakı: Elm və Təhsil, 2010, s.182-187.
5. Azərbaycan xalqının milli özünütəsdiqində Cəlil Məmmədquluzadənin satirik şeirlərinin rolu / Nizami Gəncəvi adına Milli Azərbaycan

Ədəbiyyatı Muzeyi. “Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri”. Beynəlxalq konfransın materialları. Bakı: Elm, 2010, s.145-148.
6. Celil Memmedkuluzade`nin 20. Yüzyılın yeni şiirinden taleplerine dair // Kültür Evreni.Türkiye, 2010, sayı 2, s.292-297.
7. Cəlil Məmmədquluzadənin ədəbi-tənqidi fikirlərinə dair bəzi qeydlər // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Humanitar elmlər seriyası, 2010, №2, s.54-58.
8. Cəlil Məmmədquluzadə yaradıcılığında klassik ədəbi irsə müraciət // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2010, №3, cild 6, s.195-20.
9. Cəlil Məmmədquluzadənin poeziyasına dair bəzi qeydlər / Avrasya Kurumu Sempozyum Bildirileri. Türkiye, 2010, s.214-222.
10. “Molla Nəsrəddin” jurnalının düşünən beyni və vuran ürəyi- Mirzə Cəlil və Əliqulu Qəmküsar // Əliqulu Qəmküsar: taleyi və sənəti. Bakı: Elm və Təhsil, 2011, s.122-130.
11. “Ədəbi dövrün başçısının” ədəbiyyat və sənətə baxışı // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2011, №1, cild 7, s.216-222.
12. Sağlam ənənələrdən novatorluğa // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Humanitar elmlər seriyası, 2011, №1, s.93-97.
13. Cəlil Məmmədquluzadənin “Çobanlar” şeiri haqqında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2012, №1, cild 8, s.203-208.
14. Cəlil Məmmədquluzadənin şeirlərində bədii ifadə vasitələri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2012, №3, cild 8, s.177-183.
15. Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı və folklor // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2012, №2 (46), s.114-118.
16. Cəlil Məmmədquluzadənin şeirlərində bədii təsvir vasitələri // Pedaqoji Universitet Xəbərləri, 2012, №2, s.278-282.
17. Cəlil Məmmədquluzadənin şeir yaradıcılığında adətlərimizə münasibət məsələsi // “Naxçıvan”. İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal, 2012, №25, s.175-182.
18. Cəlil Məmmədquluzadə yaradıcılığında Sədi Şirazi şeirləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2013, №1, cild 9, s.148-156.
19. Heydər Əliyev və Cəlil Məmmədquluzadə yaradıcılığının qiymətləndirilməsi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Xüsusi buraxılış,



2013, s.298-303.
20. Cəlil Məmmədquluzadənin heca vəznli şeirləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2013, №3, cild 9, s.153-158.
21. Cəlil Məmmədquluzadənin müsəlman qadınının həyatından bəhs edən satiraları / Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri. Beynəlxalq konfransının materialları. Naxçıvan, 2013, s.52-53.
22. Rus edebiyatının seçkin temsilcileri ve Celil Memmedguluzade. Avrasya (Uluslararası Araştırmalar dergisi). Türkiye, ocak 2014, cilt:2, sayı:4, s.52-56. http:// www. avrasyad.com.
23. Азербайджанский ученый, положивший конец полемике. Культура народов Причерноморья. Крым, 2014 г, №267, с.174-177.
24. Celil Memmedguluzade`nin müslüman kadınının hayatını ele alan mizahi şiirleri. Türkiyat Araştırmaları Enstitüsü Dergisi. Erzurum, 2014, № 51, s.341-347.

## РЕЗЮМЕ

**А.А.Оруджова**

## СТИХОТВОРНОЕ ТВОРЧЕСТВО ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ

Диссертация состоит из введения, трех глав, выводов и списка использованной литературы.

Во «Введении» обоснована актуальность темы, подробно сообщается об объекте исследования, целях и задачах, методах, научной новизне, апробации и структуре.

I глава называется «Вопросы сбора, издания и исследования стихотворений Джалила Мамедкулизаде». Его стихи были впервые собраны Аббас Замановым и Камран Алиевым, и изданы в книге под названием «Стихи Молланасреддинца» (1986). Профессор Аббас Заманов, совершив великий прорыв в исследовании творчества Мирзы Джалила, собрал и предоставил в распоряжения читателей четырнадцать его стихотворений. Академик Иса Габиббейли в 2004 году за счет великого усердия и труда собрал еще 16 его стихотворений и издал их в первом томе «Сочинений» автора. В исследовании поэзии Джалила Мамедкулизаде достойны одобрения заслуги А.Мирахмедова, И.Габибейли, И.Агаева, Ф.Гусейнова, И. Джафар, Х.Керимли и других видных литературоведов.

Во II главе, которая называется «Связ стихи Джалила Мамедкулизаде с классическими наследствами, тема и мишени критики в поэтическом творчестве» исследованы литературно-теоретические взгляды Джалила Мамедкулизаде, отношение к литературе и искусству, в особенности его отношение и связь с поэзией, требования к поэзии нового века, литературно-критические мысли, отношение и обращение к наследию классической литературы, а также темы, идеи и мишени критики в его поэтическом творчестве.

III глава называется «Художественные особенности стихотворений Джалила Мамедкулизаде». Здесь исследуются: средства художественного описания и выражения в поэзии гениального литератора, своеобразие использования сатирических монологов и диалогов, связь его поэзии с фольклором, особенности художественного языка, размера и рифмы.

В «Выводах» обобщены основные положения, полученные в ходе исследовательской работы.





## SUMMARY

**A.A. Orujova**

## JALIL MAMMADGULUZADEH'S POEM ACTIVITY

The thesis consists of an introduction, three chapters, conclusions and bibliography.

In the "Introduction" the urgency of the given theme is grounded, also research goals and objectives, methods, scientific novelty, testing and structure are in detail cited.

The chapter I is entitled "Questions on the collection, publication and research of Jalil Mammadguluzadeh's poems". His poems were first collected by Abbas Zamanov and Kamran Aliyev, and then published in a book called "Poets of "Molla Nasreddin" (1986). Professor Abbas Zamanov has done a great breakthrough in the study of Mirza Jalil's creativity, he has collected and made available to the readers fourteen poems. Academician Isa Habibbayli in 2004 by the great diligence and labor gathered 16 poems of the author and published them in the first volume of his "Works". In the field of study of Jalil Mammadguluzadeh's poetry commendable achievements have A.Mirahmedov, I.Habibbayli I.Agayev, F.Huseynov, I.Jafar, KH.Kerimli and other prominent literary critics.

In the chapter II, which is called "Theme and the target of criticism in the poetry of Jalil Mammadguluzadeh connected with classical heritage" literary-theoretical views of the writer, his attitude towards art and literature, especially his attitude and relationship with poetry, his requirements for a new century poetry, literary-critical thoughts, attitude and appeal to the heritage of classical literature, as well as themes, ideas and targets of criticism in his poetic works are studied.

The chapter III is called "Art features of Jalil Mammadguluzadeh's poems". Here we investigate: means of artistic expression and description in the poetry of this writer of genius, his originality in use of satirical monologues and dialogues, connection of his poetry with the folklore, especially the artistic language, verse size and rhyme.

The "Conclusions" summarizes the main results obtained through research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АЙГЮН АХМЕД КЫЗЫ ОРУДЖОВА**

# СТИХОТВОРНОЕ ТВОРЧЕСТВО ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**Нахчыван – 2014**



Çapa imzalanmışdır: 24.10.2014
Formatı: 60x90,16/1, həçmi:1.3ç/v
Sifariş: 55 Sayı: 100

NDU-nun “Qeyrət” nəşriyyatının mətbəəsində çap olunmuşdur.